# Əfsanəvi qəhrəman

***İgid sərkərdə Həzi Aslanovun komandirlik məharəti, qəhrəmanlığı haqqında çox yazılmışdır. Lakin bu yazılarda əfsanəvi generalın şanlı döyüş yolunun, qəhrəmanlıq tarixinin açılmamış səhifələri də çoxdur. Onlar əsasən 1940-cı illərin payına düşmüşdür.***



Həzinin qəhrəmanlığını yaşadan və təbliğ edən ev-muzeyində bu baxımdan çox maraqlı yazılar mühafizə olunub saxlanılır. Generalın anadan olmasının 95 illiyi və Böyük Vətən Müharibəsində tarixi qələbəmizin 60-cı ildönümü münasibətilə bu materiallar üzərində apardığımız araşdırmalar öz məzmununa görə böyük maraq doğurur. "Azərbaycan gəncləri" qəzetinin 1946-cı il 8 sentyabr tarixli nömrəsində "General döyüşçü" məqaləsində iki il H.Aslanovun briqadasında xidmət etmiş tankçı A.Svetov yazır:

"Belarusiyadakı hücumlarımız zamanı məlumat bürosunun xəbərlərindən birində almanların çox möhkəmləndirilmiş olduqları Pleşenis adlı məntəqənin adı çəkilirdi. Yəqin bir çoxları bilmirlər ki, almanların Minskdən Borisova geri çəkildikləri zaman istifadə etdikləri bu məntəqəni başda general-mayor Həzi Aslanov olmaqla 23 döyüşçü tutmuşdur. Bu döyüşü mən həmişə yaxşı xatırlayıram.

1944-cü ilin isti iyul günlərindən biri idi. Dördüncü gün idi ki, hissəmiz şiddətli hücum döyüşü keçirirdi. Almanlar Berezina çayı üzərindəki körpünü partlatmaqla hücumumuzu bir qədər ləngitdilər. Döyüşçülər körpünü təmir etməyə başlasa da H.Aslanov bunu gözləyə bilmədi. O bir neçə zabitin və avtomatçının müşayiəti ilə zirehli maşında çayı o tərəfə keçdi. Belə az qüvvə ilə Həzi düşmənin tutmuş olduğu sahənin içərilərinə doğru 30 kilometr irəlilədi və qarşıdakı kəndə daxil oldu. Adamlar sevincək halda zirzəmilərdən bayıra atıldılar. Bu zaman bir rus qadını Həziyə yaxınlaşıb göz yaşları ilə onu bağrına basdı və dedi:

– Doğma balam, doğrudanmı biz azad olmuşuq?

– Azadsan, ana, azad! – deyə Həzi mehribanlıqla gülümsədi və hamıya təskinlik verməyə başladı.

Bütün kənd əhalisi rəşadətli generalın avtomobilini gül-çiçəklə doldurmuşdu. Onlar Həziyə müxtəlif hədiyyələr gətirdilər və ondan bir qədər istirahət etməyi xahiş etdilər. Lakin bunun üçün vaxt yox idi. O, dərin fikrə getmiş bir halda əlindəki qələmlə xəritədə müxtəlif işarələr edirdi. Bir azdan zabitləri başına yığıb dedi:

– Pleşenis bu gecə bizimki olmalıdır.

Qərargah komandiri qoca polkovnik inamsızlıqla başını yırğalayaraq dedi:

– Çox qorxuludur, yoldaş general.

– "Ayıdan qorxan meşəyə getməz", – deyə H.Aslanov xoş təbəssümlə polkovniki süzdü.

"Kommunist" qəzetinin 23 yanvar 1943-cü il tarixli nömrəsində "Qəti qələbə günümüz yaxınlaşır" məqaləsində Sovet İttifaqı Qəhrəmanı H.Aslanov Azərbaycan zəhmətkeşlərinə göndərdiyi məktubunda yazırdı:

"Mənim komandanlıq etdiyim hissə Stalinqrad ətrafında vuruşur. Bu şanlı, qəhrəman şəhər uğrundakı qızğın vuruşmalarda bizim möhkəmliyimiz və mərdliyimiz daha da artmışdır. Düşmənə qarşı ürəyimizdə coşan nifrət burada qat-qat qüvvətlənmişdir. Burada qəti hücum üçün yenilməz qüvvə toplamışıq. Hissəmiz komandanlığın bütün tapşırıqlarını ləyaqətlə yerinə yetirdi. Təyin olunan saatda düşmənin müdafiə xəttini yardıq. İti sürətlə irəliləyən tanklarımız qaçan hitlerçiləri təqib etdi. Nemeslərin ehtiyat tank diviziyalarının əks hücumuna möhkəm müqavimət göstərdik, onları taqətdən salıb yenə irəlilədik.

Hökumət və komandanlıq hissəmizin şəxsi heyətinə göstərdiyi mərdliyə və igidliyə görə yüksək qiymət verdi. Hissəmiz qvardiya hissəsinə çevrildi. 100 nəfərdən artıq döyüşçü və komandirimiz orden və medallarla təltif edildi. Mənə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Mehriban yerlilərim, bunları sizə sevinclə bildirirəm. Vətənimizin bütün xalqlarının oğulları ilə birlikdə Azərbaycan oğullarının da qəddar düşmənə qarşı mərd-mərdanə vuruşması sizi də sevindirir. Qələbəmizi hamımız birlikdə hazırlayırıq. Əziz yoldaşlar, şanlı Bakı neftçiləri, silah qayıran işçilər və kolxozçular, səyinizi qat-qat artırın! Biz döyüşçülər də irəliyə doğru yürüşümüzü durmadan qüvvətləndirəcəyik. Qəti qələbə günümüz yaxınlaşır! Biz buna tamamilə əminik".

"Kommunist" qəzetinin 10 dekabr 1943-cü il tarixli nömrəsindəki yazıda isə oxuyuruq:

– Sovet İttifaqı Qəhrəmanı, qvardiya polkovniki Volqa düzlərindən Mius çayı sahillərinədək, Kursk çıxıntısından Dnepr sahillərinədək yol keçərək onlarca şəhəri və minlərcə kəndi azad etmişdir.

Stalinqrad uğrundakı vuruşmalar zamanı, Belqorod ətrafında Mius və Dnepr çayları boyunda nemeslərin müdafiə xətlərini yararkən hissəmizin tankçıları düşmənin 73 tankını, 124 müxtəlif topunu, 65 minaatan batareyasını, 320 avtomobilini məhv etmiş, 48 nöqtəsini dağıtmışdır.

Biz irəliyə cəsarətlə baxırıq və qələbənin yaxınlaşdığını görürük".

**Tamara Fətullayeva,**
**Həzi Aslanovun ev-muzeyinin direktoru**
Lənkəran şəhəri